# XX əsrin soyqırımın finalı - Xocalı soyqırımı



*Mais* Əmrahov
***AMEA-nın A.A.Bakıxanov adına Tarix İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor***

*(Əvvəli ötən saylarımızda)*

***Daud Xeyriyan Beyrutun "Əş-Şərq" nəşriyyatında çapdan çıxan "Xaç uğrunda" kitabında Xocalı faciəsindən bəhs edərək yazır:*** "...Bəzən çaşıb ayağımızı meyidlərin üstünə qoyaraq, keçib gedirdik. Daşbulaq tərəfdəki bataqlıqdan keçmək üçün ölənləri yanaşı düzüb yol düzəltdik. Ayağımı ölənlərin üstünə qoyub getmək istəmədim. Polkovnik Ohanyan mənə işarə etdi ki, qorxmayım. Müharibənin qurbanlarından biri də budur. Mən ayaqlarımı sir-sifəti qana bulamış 9-10 yaşlı bir qızın sinəsinə sıxıb irəli addımladım... Ayaqlarım, fotoaparatım qan içində idi".

Daha sonra erməni jurnalist yazır: "Martın 2-də ermənilərin "Qaflan" qrupu 100 nəfərdən artıq türk meyidini yığıb Xocalıdan təqribən bir kilometr qərb istiqamətində yandırdı". Sonuncu maşında təqribən 10 yaşında olan bir qız uşağı da gördüm. O, alnından və qollarından yara almışdı. Sir-sifəti göyərmiş bu uşaq hələ ölməmişdi. Aclığa və soyuğa, aldığı yaralara baxmayaraq ölməmişdi. Asta-asta nəfəs alırdı. Ölümlə çarpışan bu uşağın gözlərini unuda bilmirəm... Bir azdan onu da "Qaflan"çıların "səyyar ölüm ocaqları"nda yandıracaqdılar. Heysiz-hərəkətsiz uzanmış, dırnaqlarından qan süzülən bu uşağı Tiqranyan çağırılan bir əsgər tolazlayıb, qalaqlanmış meyidlərin üstünə atdı...Sonra bu insan qalağına od vurdular. Bu zaman elə zənn etdim ki, yana meyidlərin içərisində kimsə qışqırır, aman və imdad diləyir... Onlar isə xaç uğrunda döyüşlərini davam etdirirdilər".

Erməni hərbi birləşmələri təkcə insanları qətlə yetirməklə kifayətlənmədilər. Onlar həm də nüvə silahını sınaqdan keçirmişdilər. "Bundesver" qəzeti 1992-ci il 7 may tarixli, "İzvestiya" qəzeti 13 may tarixli nömrəsində yazır ki, fevralın 25-də Azərbaycanın Xocalı şəhərinə Xankəndindən 122 mm-lik sionid başlıqlı mərmi atılmışdır.

Erməni torrorçuları Qarabağı narkotik bitkilərin əkin yerlərinə çevrmişlər. Burada "Qara bant" çılar, ASALA qrupunun terror təlim düşərgələri, "Emissar" lar üçün mərkəz, reabilitisiya mərkəzi, İnformatorlar qrupu, hərbi sursat mərkəzi, kimyəvi preparatlar üçün "Restisid" anbarı, kəşfiyyatın "Elektron" mərkəzi, poçt kommunikasiyası, "Hay Dad" və "Evkara" mərkəzləri, "Mücahidlər", "Kilsə" qərargahdarı, "Çeqakron" terror təşkilatı, elmi-tədqiqat mərkəzləri, bioloji silahlar üzrə laboratoriyalar yaradılmışdır. Elə isə dünya bunları billə-bilə niyə 100 il bundan əvvəl ermənilərin soyqırı məruz qaldıqlarını subut etmədən qərarlar qəbul edir, insan azadlıqları və hüquqlarına zidd olaraq hətta erməni soyqırımını inkar edənlərə cəza müəyyənləşdirir, amma 20 il bundan əvvəl baş verən həqiqəti inkar edirlər. Bu suala cavab 366-cı alayın komandiri Yuri Zarviqarovun zabitlər qarşısındakı çıxışında dəqiq ifadə edilmişdir. 1992-ci il fevralın 24-də saat 21.15-də general rütbəsi alan zabit çıxışında demişdir: "Regiondakı müharibə torpaq müharibəsi yox, islamın xristianlığa qarşı müharibəsidir". Amma, cənab general yanılmışdır. Bu əbədi və əzəli torpaqlar uğrunda müharibədir. Bu ata-babalarımızn əmanət etdiyi vətən torpağının bir qarpışı uğrunda, müəqddəs ruh naminə müharibədir və torpaqlar azad olunanadək davam edəcəkdir.Livanda fəaliyyət göstərən "Pamkavar" partiyasının liderlərindən olan Rəfael Messayan Beyrutda çıxan "Zartunk" ("Oyanma") qəzetinin 24 mart 1992-ci il tarixli sayıda "Bir erməni yardımı" yazısında yazırdı: " ...Xocalı uğrunda vuruşan, döyüşə atılanları unutmaq, yaddan çıxartmaq biz ermənilərə yaraşan iş deyil. Onlara-o igidlərə yardım edin. Məlumatımız var ki, dünyanın 24 ölkəsində varlı və zəngin erməni iş adamları "Artsax yardım fondu" təsis ediblər. O fond həm də bizim gələcək nəsillərin taleyi üçündür... Londonda erməni iş adamı satdığı villasının dəyərini, Vaşinqtonda erməni biznesmeni Araz Suleyman öz ticarət mərkəzindən gələn illik gəlirini...Parisdə "Erməni ana dili" cəmiyyətinin üzvləri topladıqları ianələri...Xocalı qəhrəmanları üçün ayırdılar...".

Bu faktlar bir daha sübut edir ki, Azərbaycanın Xocalı şəhərində törədilmiş cinayətlər təsadüfideyil, Ermənistanın sistemli zorakılıq siyasətinin tərkib hissəsidir. Xocalıdakı mülki insanların məqsədyönlü qırğını, sadəcə, azərbaycanlı olduqları üçün onların kütləvi məhvinə yönəlmişdi. Beynəlxalq hüquqa görə belə hərəkətlər "soyqırımı" anlayışına uyğundur və dünya ictimaiyyəti tərəfindən bu cür tanınmalıdır. Xocalı faciəsi təkcə Azərbaycan xalqına qarşı deyil, bəşəriyyətə qarşı yönəlmiş müharibə cinayətidir. Bu cinayəti törədənlər mühakimə olunmalı və cəzalandırılmalıdır. Həmin vaxt Azərbaycanda olmuş xarici jurnalistlərin gözləri ilə gördükləri, yaxud hadisə şahidlərinin dedikləri əsasında yazdıqları materiallar da ədalət mühakiməsi üçün təkzibedilməz sübutlar ola bilər.

Xocalının zəbt olunması zamanı dinc azərbaycanlı sakinlərə qarşı ağlasığmaz vəhşilik törədənlər və Cenevrə konvensiyasının "İnsan hüquqları haqqında" ümumi deklarasiyasının (BMT Baş Məclisi tərəfindən 10.12.1948-ci ildə qəbul olunmuşdur) 2, 3, 5, 9 və 17-ci maddələrinin, "Hərbi münaqişələr və fövqəladə hallar zamanı qadın və uşaqların müdafiəsi haqqında" devlarasiyanın (BMT Baş Məclisi tərəfindən 12.12.1974-cü ildə qəbul olunmuşdur), "Soyqırım cinayətlərinin qarşısının alınması və cəzalandırılması haqqında" konvensiyanın (09.12.1948-ci ildə BMT Baş Məclisi tərəfindən qəbul olunmuşdur) tələblərinin kobud surətdə pozanlar indiyədək cəzalandırılmamışdır. Halbuki adları qeyd olunan konvensiyalar, Nürnberq hərbi tribunalının Nizamnaməsi, Yuqoslaviya üzrə Beynəlxalq cinayət tribunalının Nizamnaməsi, Ruanda üzrə Beynəlxalq cinayət tribinalının Nizamnaməsi, Beynəlxalq cinayət məhkəməsinin Statutu, Azərbaycan Respublikasının Cinayət məcəlləsi, Azərbaycan Respublikası Prezidentinin "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanı Xocalı hadisələrini beynəlxalq hüquq əsasında soyqırımı cinayəti aktı kimi dəyərləndirməyə imkan verir.

Ermənistan BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasını ratifikasiya etmiş, lakin buna baxmayaraq, uşaqlara qarşı zorakılıq əməlləri törətməkdən çəkinmir, istər müharibə, istərsə də atəşkəs zamanı öz çirkin niyyətlərini həyata keçirir. Ermənistanın Azərbaycan mülki əhalisinə və mülki obyektlərə birbaşa və qəsdən hücumları, beynəlxalq humanitar hüququn və insan haqlarının, xüsusilə 1949-cu il Cenevrə konvensiyaları və ona 1 saylı Əlavə, həmçinin Uşaqların hüquqlarının və İnsan hüquqlarının müdafiəsi və fundamental azadlıqlara dair Konvensiyanın ciddi şəkildə pozulmasıdır. Buna dünya ictimaiyyəti və BMT-nin üzv dövlətləri tərəfindən layiqli qiymət verilməlidir. Qeyd etmək lazımdır ki, Xocalı qətliamı Ermənistanın Azərbaycan xalqına qarşı məqsədyönlü soyqırımı siyasətinin tərkib hissəsidir və bu soyqırımı beynəlxalq cinayət kimi qəbul edilməli, insanlığa qarşı ən ağır cinayətlərdən biri kimi qiymətləndirilməlidir.

Terror təlim düşərgələri, elmi-tədqiqat mərkəzləri, bioloji silahlar üzrə laboratoriyalar



Beynəlxalq hüquqa görə soyqırımı sülh və insanlıq əleyhinə yönələn əməldir və ən ağır cinayət hesab edilir. Bu barədə BMT Baş Məclisinin 1948-ci il 9 dekabr tarixli 260 (III) saylı qətnaməsi qəbul edilmiş və 1951-ci il yanvarın 12-dən qüvvəyə minən "Soyqırımı cinayətinin qarşısının alınması və cəzalandırılması" konvensiyasında soyqırımı cinayətinin hüquqi əsası təsbit olunmuşdur.

Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız ümummilli lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə yenidən qayıtdıqdan sonra açıqlanmış, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermişdir.

Hazırda bu soyqırımını törədənlərin ifşa olunması və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılması Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilmişdir. Xocalı həqiqətlərinin dünyaya çatdırılması, beynəlxalq aləmdə yayılması, eləcə də bu soyqırımına obyektiv qiymət verilməsi istiqamətində davamlı olaraq addımlar atılmışdır.Bu baxımdan, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gördüyü işlər olduqca təqdirəlayiqdir. Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində çox sistemli və ardıcıl fəaliyyət göstərir. Bununla yanaşı, 2008-ci il mayın 8-də Ermənistan silahlı qüvvələri tərəfindən Şuşa şəhərinin işğal edilməsinin ildönümündə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə "Xocalıya ədalət!" kampaniyası təsis edilmiş və 2009-cu ilin fevralından bu kampaniyaya start verilmişdir.Soyqırımın tanıdılması və qətliama siyasi qiymət verilməsi istiqamətində görülən işlər artıq daha ciddi nəticələr verməkdədir. Belə ki, ABŞ-ın 25-dən çox ştatının, 15-dək çox ölkənin qanunverici orqanı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı tərəfindən qəbul edilən sənədlərdə Xocalı faciəsi soyqırımı aktı və insanlığa qarşı cinayət kimi tanınmış və bu proses davam edir.

Artıq 30 ilə yaxındır ki, XX əsrin ən böyük soyqırımlarından birinin-Xocalı soyqırımında şəhid olanların xatirəsini yad edirik. Xocalı Azərbaycan xalqının soyqırımlar tarixinin son səhifəsi, müstəqillik illərinin ilk soyqırımlarındandır. Odur ki, müstəqilliyimizi qorumalı, onun əbədi və daim olmasna çalışmalıyırıq.

Dünyanın siyasi xəritəsində müasir Azərbaycan ərazicə kiçik bir ölkədir. XX əsrin sonlarında Azərbaycanda milli intibah, siyasi oyanış, müstəqillik və istiq lal uğrunda mübarizə geniş vüsət almış, Azərbaycan Dövlət Müstəqillyini bərpa etmişdir. Müstəqil Azərbaycan Respublikasının qurucusu ümummilli lider Heydər Əliyev müstəqilliyin daimi və dönməz olması üçün titanik fəaliyyət göstərmişdir. Bu gün Azərbaycan dövlətinin başında ulu öndərin siyasi kursunu davam etdirən bir şəxsiyyət dayanmışdır. Bədii obrazlarla ifadə etsək Azərbaycan dünya okeanına üzməyə çıxan yeni bir gəmidir. Okean isə fırtınalı və qasırğalıdır. Ancaq təcrübəli kapitan gəmini okeanda lazımi marşrutla irəli apara bilər. H.Əliyev "Müstəqil Azərbaycan" adlı gəmini dünya okeanına çıxarmış, onun kursunu müəyyənləşdirmişdir. Bu kursu ancaq ulu öndərin məktəbini keçmiş İlham Əliyev davam etdirə bilərdi və ona görə də xalqımız onu özünə rəhbər seçmişdir.

İlham Əliyevin prezidentlyi dövründə Müasir Azərbaycan sürətlə inkişaf yoluna qədəm qoydu. Bu inkişafa mane olan yeganə əngəl isə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həll olunmaması idi. Qafqazda nüfuzunu itirməkdən qorxan keçmiş SSRİ adlı imperiyanın varislərinin dəstəyi ilə "Dağlıq Qarabağın öz müqəddəratını təyin etməsi" adı altında respublikamızın ərazi bütövlüyünün pozulması səbəbli 20 faizdən artıq torpaqlarımız işğal olunmuş, milyondan çox soydaşımız qaçqın və köçkün şəraitində yaşamağa məcbur edilmişdir. Son 18 ilin siyasi hadisələrini izlədikdə aydın olur ki, yaxın və uzaq müttəfiqlərimiz bu problemin həlli istiqamətində heç bir əsaslı iş görmək fikrində olmamışlar.



*(Əvvəli 4-cü səhifədə)*

ATƏT-in və digər beynəlxalq qurumların fəaliyyəti siyasi manevrləri xatırladırdı. Zənnimcə, baş verənlərə münasibət imperiyapərəstlərin XX yüzilliyn əvvəllərindən həyata keçirdikləri siyasətin nəticəsi kimi qiymətləndirilməlidir. XX əsrin başlanğıcında olduğu kimi, əsrin sonunda da yaşadığımız ağrılardan doğan tükürpədici fəryadlarımız qulaqardına vurulub. Belə olmasaydı Xocalı faciəsində keçən 30 ildə başbilənlər, özlərini dünyanın ağası hesab edərək “demokratiyadan dəm vuranlar”, üzdə bir cür, arxada başqa cür davranmazdılar. Bu sətirləri fikirləşərkən talesiz, alovlu vətən şairmiz Məhəmməd Hadinin sözləri yadıma düşür. Xalqın fəryadını ifadə edən Hadi:

-

-

deyə yazırdı və sualın cavabını da özü verirdi: “Bir nişan almaq üçün satmayın bu milləti”.

Millətin, milliyyətin heç yoxmu sizdə qeyrəti - deyirdi. Çünki gözümüz vəzifə kreslosundan başqa bir şey görmürdü, halaldan daha çox haram haqqında düşünürdük.

Hər bir diplomatiyanın arxasında güc durduğunu yaxşı dərk edən Azərbaycan xalqı iqtisadi cəhətdən daha qüdrətli, milli birlik baxımından daha sarsılmaz olduğunu 2020-ci ilin 44 günlük Vətən müharibəsində sübut edərək bbütün dünyay göstərdi ki, o, əlindən zorla alınmış torpaqlarını geri qaytarmağa və ərazi bütövlüyünü təmin etməyə qadirdir.

Bu gün işğaldan azad olunmuş torpaqlarda Azərbaycan bayrağı dalğalanır. Arzum budur ki, Azərbaycan bayrağı ancaq şəhid önündə əyilsin. Türk dünyasının böyük şairi Bəxtiyar Vahabzadənin yazdığı kimi Bayraq mənliyimiz,, bayraq kimliyimiz, Göytürkdən qalan Qurdbaşlı bayrağın balasədir. Bayraq öz yurdumuza hakimliyimizin ifadəsidir. Bayrağımız tarixdən qədimdir, zamandan qocadır. Bayrağımıza sancılan hilal tarix boyunca aləmə nur saçmış, məbədlər başına tac olmuşdur.

Daim ucalasan! Savaş günündə
Əsgər silahıyla səni tən görüm.
Yalnız zəfər çalmış şəhid önündə
Səni alqış üçün əyilən görüm.

# Ədəbiyyat


*1. Cəsədlər Qarabağdakı təpələrdə qalaqlanmışdı https: azertag. azxeber 1721901*

*2. Dağlıq Qarabağda qırğın törədilən yerlərdə cəsədlər səpələnib https:azertag. azxeber 1721901*

*3. Erməni əsgərləri qaçan yüzlərlə ailəni qırırhttps: azertag. azxeber1721901*

*4. Eskadrilya” qəzeti, Telavi. 1992, 20 fevral;*

*5. Hacıyev N. Dağlıq Qarabağ tarixinə dair sənədlər. Bakı, 2005, s.124*

*6. Xocalı soyqırımı-1992 (sənədlərdə, faktlarda və mətbuatda), Bakı “Əbilov, Zeynalov və oğulları” Nəşriyyat-Poliqrafiya evinin mətbəəsi. 2006, 582 səh, s.138*

*7. Xocalı həqiqətləri xarici mediada https: azertag. azxeber 1721901*

*8. Xronologiya. 20 Yanvara aparan yol. <https:files.preslib>. azprojects aggressionaza 3. pdf*

*9. ”İzvestiya” qəzeti, 1992,13 may*

*10. Kamil Səlimov. Xocalı birinci dərəcəli hədəfdir Xocalı soyqırımı - 1992 (sənədlərdə, faktlarda və mətbuatda), Bakı “Əbilov, Zeynalov və oğulları” Nəşriyyat - Poliqrafiya evinin mətbəəsi. 2006, 582 səh, səh.135-136*

*11. Nezavisimaya” qəzeti, 5 mart 1992-ci il*

*12. “Respublika” qəzeti, 26 fevral 2013-cü il*

*13. Rövşən Novruzoğli, Yunus Oğuz. Qarabağ: Nəzarətsiz zona...Bakı: Ozan”, 2002, 252 s.,s.130*

*14. “Səs” qəseti, 2009, 29 dekabr*

*İnternet resursları*

*15. <https:525.aznews163082-xocali-soyqirimi-ermenistanin-beynelxalq-cinayetlerinin-terkib-hissesidir>*

*16.Kəşfiyyat zabiti Savelyevin “məxfi arayış”ı. Xocalıda soyqırımı törədildiyini təsdiqləyən daha bir sənəd http:www. anl. azdownmeqalexalqqazeti2018fevral582004.htm*

*https:azertag.azxeber1721901*


**2022**